# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

03 (76) 10 fevral 2017-ci il İctimai-siyasi qəzet

## Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı üzvlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Qritçenko Aleksandr Aleksandroviç

Səttarova Fatma Hüseyn qızı.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 yanvar 2017-ci il.**



## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

### Möhtərəm cənab İlham Heydər oğlu Əliyev!

İlk öncə, uzaqgörən və istedadlı idarəçiliyiniz sayəsində Azərbaycanımızın bütün sahələrdə inkişafını və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin etdiyinizə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yolunu şərəf və ləyaqətlə davam etdirdiyinizə görə Sizə bir Azərbaycan vətəndaşı, bir müharibə veteranı, bir ağbirçək kimi minnətdarlığımı bildirirəm.

Eyni zamanda imzaladığınız sərəncamla məni "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif etdiyinizə görə Sizə dərin ehtiram və təşəkkürümü bildirirəm.

Biz Sizin xalqımız qarşısında misilsiz xidmətlərinizi ürəkdən bəyənir və böyük ruh yüksəkliyi ilə qarşılayırıq. Xüsusilə qeyd etmək istəyirəm ki, dünyanı iqtisadi böhran bürüdüyü bir zamanda Azərbaycanın dinamik inkişafının qorunub saxlanılması, əhalinin sosial rifahının yaxşılaşdırılması naminə gördüyünüz böyük işlər sayəsində ölkəmiz gündən-günə dəyişir, inkişaf edir və müasirləşir.

Möhtərəm cənab Prezident, Ali Baş Komandan!

Məhz Sizin rəhbərliyiniz altında ötən ilin aprel ayında rəşadətli və şanlı ordumuz tərəfindən mənfur düşmənə sarsıdıcı zərbələr vurulması nəticəsində işğal altında olan torqaqlarımızın bir hissəsinin azad olunması ilə əldə olunan qələbə mənə gənclik illərində yaşadığım, faşizm üzərindəki qələbə sevincini bir daha bəxş etmişdir.

Bu günlərdə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə əlaqədar imzaladığınız sərəncam isə aprel ayındakı tarixi qələbəmizin davamıdır. Bu Sərəncam bizi həddən artıq sevindirir və bütün Qarabağın və ətraf bölgələrimizin işğaldan azad olunmasına ümidlərimizi daha da artırır. Biz Böyük Vətən müharibəsi veteranları işğal edilmiş torpaqlarımızın azad olunmasında iştirak etməyə hər an hazırıq.



Əminəm ki, Azərbaycanın bütün əzəli torpaqları Sizin rəhbərliyiniz ilə tezliklə düşmən tapdağından azad olunacaq və bununla da erməni faşizminin kökü birdəfəlik kəsiləcəkdir.

Bir daha müharibə veteranlarına göstərdiyiniz diqqət və qayğıya görə bütün veteranlar adından Sizə dərin təşəkkürümü bildirir uzun ömür, möhkəm cansağlığı və Azərbaycanın müstəqilliyi və gələcək rifahı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə: Böyük Vətən müharibəsi veteranı Fatma Səttarova**

### Глубокоуважаемый Ильхам Гейдарович!

Глубокоуважаемый Ильхам Гейдарович!

Я, ветеран войны и вооруженных сил восхищаюсь Вашей многогранной деятельностью в наше непростое время. Впечатляют Ваша мудрость, способность принимать взвешенные политические решения, организовывать эффективное государственное управление и, конечно, забота о благополучии простых людей. Мне посчастливилось слушать Вашу яркую, глубоко продуманную речь по случаю 70-летия Великой Победы.



Запомнились Ваши проникновенные слова: «Все люди, сражавшиеся на фронте и самоотверженно трудившиеся в тылу достойны самого глубокого уважения. Ваш пример является ярким образцом для нынешних и грядущих поколений». Я знал, что это не просто слова. И в этом еще раз убедился, когда прочитал Ваше Распоряжение о моем награждении «Почетным дипломом Президента Азербайджанской Республики». Признателен Вам за высокую оценку моего скромного вклада в общественную жизнь родного Азербайджана. Огромное Вам спасибо и долгих лет жизни!

С глубоким почтением,
Гритченко Александр Александрович

*Respublika Veteranlar Təşkilatı gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin gücləndirilməsi istiqamətində ardıcıl iş aparır* Səh. 2-3

*Azərbaycan Prezidentinin Cocuq Mərcanlının bərpası ilə bağlı Sərəncamı aprel döyüşlərində qazandığımız zəfərin nəticəsidir* Səh. 4

*Vətənpərvərlik dönməz prosesdir* Səh. 6

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatı gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin gücləndirilməsi istiqamətində ardıcıl iş aparır

**Bu gün Azərbaycanın dünyanın qabaqcıl dövlətləri ilə bir sırada dayanmasında, dinamik surətdə inkişaf edən ölkə imici qazanmasında gənclərin rolu danılmazdır. Gənclərin uğurlarının təməlində dövlətin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi gənclər siyasəti dayanır.**

Respublika Veteranlar Təşkilatı gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda yetişmələri üçün ardıcıl iş aparır. Müntəzəm surətdə gənclərlə müxtəlif yerlərdə görüşlər keçirir, Azərbaycanın şanlı tarixi, döyüş ənənələri və gənclər gününün hərtərəfli təbliğində bilik və təcrübəsini əsirgəmir. Bu tədbirlərin əsas məqsədi gənclərimizi hazırda erməni hərbi birliklərinin işğalı altında olan Vətən torpaqlarını azad etməyə hər an hazır olmağa ruhlandırmaqdır.





Əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, gənclərin zəngin həyat təcrübəsinə malik veteranlardan öyrənmək, veteranlarınsa gənc nəslin nümayəndələrinə öz tövsiyələrini vermək baxımından belə görüşlərin əhəmiyyəti böyükdür.

C.Xəlilov hazırda Azərbaycan əhalisinin təqribən üçdəbirini gənclərin təşkil etdiyini, onların xalqına, dövlətçiliyinə sədaqətli, vətənpərvər, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik insanlar olduqlarını qeyd edib. O, Azərbaycanın ictimai-siyasi həyatında, müxtəlif sahələrdə qazanılan yüksək nəticələrdə gənclərin yaxından iştirakından danışaraq deyib: “Azərbaycanda müasir gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev gənclərin potensialının üzə çıxarılması, onların təhsilli, geniş dünyagörüşünə malik vətənpərvər insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi. Ümummilli Lider ölkənin inkişafında gənclərin iştirakını zəruri sayır, onları mühüm vəzifələrə irəli çəkirdi. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda qeyd olunmağa başlanıb. Ulu öndər Heydər Əliyevin gəncliyə göstərdiyi qayğının təzahürü kimi, fevralın 2-si respublikamızda Azərbaycan Gəncləri Günü elan olunub. 1997-ci ildən bəri hər il fevralın 2-də respublikamızın gəncləri bu günü qeyd edirlər. Bütün bunlar gənclərin təşkilatlanmasına, hərtərəfli formalaşmasına şərait yaradıb”.

Bildirilib ki, bu strateji xəttin Prezident İlham Əliyev tərəfindən inamla və müasir dövrün tələblərinə uyğun davam etdirilməsi öz bəhrələrini verib. Azərbaycan gənclərinin intellektual inkişafı, sosial, mədəni problemlərinin həlli ilə bağlı müxtəlif dövlət proqramları icra olunub. Bu gün ölkədə gənclərin qarşısında geniş imkanlar yaradan fondlar, şuralar, ictimai birliklər və sair təşkilatlar fəaliyyət göstərir. Sevindirici haldır ki, gənclər onlara göstərilən etimadı doğruldurlar. Gənclər bütün istiqamətlərdə fəaldırlar və gələcəkdə daha da fəal olmalıdırlar. Bu isə onların bilikli, geniş dünyagörüşlü, intellektual, vətənpərvər insanlar kimi yetişmələrindən asılıdır. Ölkədə həyata keçirilən gənclər siyasətinin məqsədi budur.

Ehtiyatda olan polkovnik qeyd edib ki, bu gün ordu sıralarında xidmət edən, müxtəlif sahələrdə çalışan, təhsil alan gənclərimizin hərbi vətənpərvərlik ruhunda yetişməsi bizi sevindirir. Torpaqlarımızın işğaldan azad edilməsi yönündə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ardıcıl iş aparılır. Azərbaycanın güclü ordusunun formalaşdırılması, müharibə əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, veteranlarımıza göstərilən qayğı bunun nəticələridir. Ötən ilin aprel hadisələri Ordumuzun gücünü, döyüş əzmini aydın şəkildə nümayiş etdirdi. Bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün təmin ediləcəyinə, üçrəngli bayrağımızın Şuşada və işğal altındakı digər ərazilərimizdə qaldırılacağına inamımızı daha da artırır.

Tədbirdə gənclər və idman nazirinin müavini İntiqam Babayev, Milli Məclisin deputatı Adil Əliyev, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Böyük Vətən müharibəsi iştirakçısı, “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilən Fatma Səttarova, veteranlar və digərləri çıxış edərək Gənclər Günü münasibətilə gəncləri təbrik edib, belə görüşlərin, nəsillər arasında əlaqələrin vacibliyindən, gənclərimizə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan, Azərbaycan həqiqətlərinin dünyada təbliğində gənclərin rolundan, könüllülük hərəkatında gənclərin iştirakından, ölkədə gənclərin təşkilatlanmasından, Azərbaycan gənclərinin ölkə həyatındakı rolundan, onların vətənpərvərliyindən, rəşadət və mərdliyindən söhbət açıb, müxtəlif sahələrdə qazandıqları uğurlardan və qarşıda duran vəzifələrdən danışıb, gəncləri Vətəni sevməyə, onu müdafiə etməyə, işğalçılardan azad etməyə hər zaman hazır olmağa çağırıblar.



Sonra veteranlar adından Azərbaycan gənclərinə müraciət qəbul edilib. Müraciətdə bildirilir ki, ölkənin inkişafının davamlılığında, dövlətimizin qarşısında duran problemlərin həllində gənclərin üzərinə böyük məsuliyyət düşür. Gənclər ölkənin inkişafı naminə öz potensiallarını səfərbər etməli, Azərbaycanın etibarlı gələcəyinin qurulmasında yaxından iştirak etməlidirlər. Vətəni, müstəqil dövləti qorumaq, daha da inkişaf etdirmək gənclərin ən ümdə borcudur. Onlar ölkənin ərazi bütövlüyünün təmin edilməsinə öz töhfələrini verməyə hazır olmalıdırlar. Dövlətimizin başçısının daim diqqət mərkəzində saxladığı bu məsələnin Azərbaycan xalqının milli maraqlarına uyğun həll ediləcəyinə veteranların böyük inamı var. Azərbaycan Ordusunun ruh yüksəkliyi, əsgər və zabitlərimizin vətənpərvərliyi, qələbə əzminə köklənməsi bizi ruhlandırır. Veteranlar da bütün qüvvəsi ilə bu yolda ordumuza hərtərəfli dəstək olmağa daima hazırdır.



Sonda ölkənin ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə, veteran hərəkatında fəal iştiraklarına və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsindəki xidmətlərinə görə bir neçə şəxs Respublika Veteranları Təşkilatının yubiley medalları ilə və fəxri fərmanlarla təltif olunublar. Təltif olunanlar arasında zabit və kursantlar, YAP GB-nin nümayəndələri və AZƏRTAC-ın əməkdaşı da vardır.

Tədbir bədii hissə ilə davam edib.

# Azərbaycan veteranlarının ölkə gənclərinə MÜRACİƏTİ

***Azərbaycan xalqı keşməkeşli, şərəfli bir tarix yaşayıb. Bu tarixin hər səhifəsi onun qəhrəman oğul və qızlarının qanı, canı bahasına yazılıb. 3 min ildən artıq dövlətçilik təcrübəsi olan xalqımız bu gün tarixinin ən şərəfli, həm də məsuliyyətli dövrlərdən birini yaşayır. Artıq 25 ildən çoxdur ki, biz müstəqil dövlətimizi bərpa etmişik. Müstəqilliyin ilk illərində çox çətin vəziyyətlər yaşamağımıza, hətta vətəndaş müharibəsi təhlükəsi ilə üzləşməyimizə baxmayaraq, xalqımız öz ümummilli liderinin rəhbərliyi altında bu təhlükələri adlada bildi. 1993-cü ilin iyununda xalqın tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev bütün daxili və xarici təhlükələri dəf etməklə ölkəni inkişaf və tərəqqi yoluna çıxarmağı bacardı.***

Azərbaycanda müasir gənclər siyasətinin əsası da ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər gənclərin potensialının üzə çıxarılması, onların təhsilli, geniş dünyagörüşə malik, vətənpərvər insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi. Məhz ulu öndərin gəncliyə göstərdiyi diqqət və qayğının bariz nümunəsi idi ki, 1996-cı ildən başlayaraq MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda Gənclər günü qeyd olunmağa başlandı. 1997-ci ildə isə Heydər Əliyevin sərəncamı ilə 2 fevral ölkədə Gənclər günü kimi müəyyən edildi.

Sonrakı illərdə bu siyasəti uğurla və müasir dövrün tələblərinə uyğun davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərin ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında daha geniş təmsil olunmasına şərait yaratdı. Azərbaycan gənclərinin intellektual inkişafı, sosial, mədəni problemlərinin həlli ilə bağlı müxtəlif dövlət proqramları qəbul və icra olundu. Artıq inamla deyə bilərik ki, bu gün Azərbaycanın regionun lider dövlətinə çevirilməsində gənclərin fəal iştirakı olmuşdur. Hazırda bütün çətinliklərə baxmayaraq, ölkə inkişaf və tərəqqi yolu ilə inamla irəliləyir.

Əlbəttə, düzgün strateji xəttin gətirdiyi uğurlarımız göz qabağındadır. Ancaq bizi daha çox ölkənin sabahı, nail olduğumuz inkişafın davamlılığı düşündürür. Bu isə ilk növbədə Siz gənclərin üzərinə düşən vəzifələrdir. Buna görə də Sizlərə üz tutaraq, bu gün xalqımızın və dövlətimizin qarşısında duran ciddi problemlərin həllində gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edirik. İlk növbədə, gənclər bilməlidirlər ki, müasir dünyada iqtisadi və maliyyə sistemində yaranmış böhranın dərinləşməsi ilə ekstremizm və beynəlxalq terrorizm daha da genişlənmiş, ümumi sülh və təhlükəsizliyə, dövlətlərin suverenliyinə, ölkələrin və xalqların gələcəyinə real təhlükə yaranmışdır.

Bu şəraitdə ölkələrin qarşısında duran sosial-iqtisadi və humanitar problemlərin həllinin xeyli çətinləşməsinə baxmayaraq, gənclərin ümdə problemləri olan: layiqli təhsil almaq, peşə seçimi, əmək və mənzil hüququ, hərtərəfli mədəni inkişaf, yaradıcılıq, turizm, idman və s. hüquqlarının təminatı üçün Azərbaycan dövləti imkanlardan maksimum istifadə etməyə çalışır. Buna görə də gənclər ölkənin inkişafı naminə öz potensiallarını tam səfərbər etməli, Azərbaycanın etibarlı gələcəyin qurulmasında daha yaxından iştirak etməlidirlər. Eyni zamanda, hazırkı mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq, onlar daha sayıq olmalı, yad təsirlərə məruz qalmamalı, milli-mənəvi, dini dəyərlərimizə sahib çıxmalı, tolerant düşüncəyə malik olmalı, proseslərdən baş çıxarmağı bacarmalıdırlar.

Sizlər çox böyük tarixə malik olan xalqın övladları olduğunuzu unutmamalısınız. Babalardan, atalardan əmanət olunmuş Vətəni, müstəqil dövləti qorumaq, daha da inkişaf etdirmək sizlərin ən ümdə borcunuzdur. Sizlər bü gün Azərbaycanın qarşısında duran ən ümdə problem olan ölkənin ərazi bütövlüyünün təmin edilməsi, torpaqlarımızın erməni hərbi birləşmələrinin işğalından azad edilməsinə öz töhfənizi verməyə hər an hazır olmalısınız. Ölkə Prezidentinin daim diqqət mərkəzində saxladığı bu məsələnin Azərbaycan xalqının milli maraqlarına uyğun həll ediləcəyinə biz veteranların böyük inamı var. Son vaxtlar ölkədə güclü ordu qurulması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər, xüsusilə ötən ilin aprel ayında düşmənə ağır zərbə vurulması bu inamımızı daha da artırmışdır.

Biz müharibəni öz həyatında yaşamış insanlar kimi hər bir ordunun gücünün silah, texnika ilə yanaşı şəxsi heyətin peşəkarlıq və mənəvi-psixoloji hazırlığından da birbaşa asılı olduğunu yaxşı bilirik. Azərbaycan Ordusunun ruh yüksəkliyi, əsgər və zabitlərimizin vətənpərvərliyi qələbə əzminə köklənməsi bizi ruhlandırır. Biz veteranlar da Qələbə gününün daha da yaxınlaşdırılması üçün bütün qüvvəmizlə ordumuza, əsgərlərimizə hərtərəfli dəstək olmağa, onlarla bir sırada düşmən üzərinə yeriməyə həmişə hazırıq. Biz respublika veteranlar Təşkilatının ölkə gənclərinin vətənpərvərlik tərbiyəsinin daim gücləndirilməsi istiqamətində apardığı ardıcıl və səmərəli fəaliyyəti də onların Qələbə əzminin başlıca mənbələrindən biri hesab edirik.

Əziz gənclər, Sizin arxanızda Azərbaycanın şanlı və şərəfli tarixi, qarşımızda isə işıqlı və uğurlu gələcəyi durur. Nə vaxtsa birinci sıraya öz adınızı yazdırmaq üçün, Sizlər ikincinin həyata keçməsinə öz töhfənizi verməyi bacarmalısınız!

Biz əksər gənclərimizin məhz bu ruhda yetişdiyinə və bu amallarla yaşadığına inanırıq.

**01 fevral 2017-ci il.**

AZƏRBAYCAN VETERANI

# Azərbaycan Prezidentinin Cocuq Mərcanlının bərpası ilə bağlı Sərəncamı aprel döyüşlərində qazandığımız zəfərin nəticəsidir



Prezident İlham Əliyevin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpa olunması ilə bağlı tədbirlər haqqında Sərəncamı ilə məcburi köçkünlərin doğma yurdlarına qayıtmalarına əsaslı zəmin yaranıb, məskunlaşma prosesinin reallaşdırılmasına başlanılıb. Bu Sərəncam nəinki hazırda bərpasına başlanılan Cocuq Mərcanlı kəndinin sakinlərində, hər bir azərbaycanlıda böyük ruh yüksəkliyi yaradıb. Həmçinin Azərbaycan xalqının işğal altındakı torpaqlarımızın tezliklə azad ediləcəyinə, bütün məcburi köçkünlərimizin öz dədə-baba yurdlarına qayıdacaqlarına olan əminliyini artırıb. Bu Sərəncam, həmçinin ermənilərə siyasi mesajdır: Azərbaycan Respublikası işğal altında olan torpaqlarını heç zaman güzəştə getməyəcək.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov deyib.

Cəlil Xəlilov bildirib ki, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmaları sevindirici və qürurverici hadisədir. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin sosial-maddi durumunun yaxşılaşdırılması ilə bağlı çoxlu sərəncamlar verib, onların problemlərini daim diqqət mərkəzində saxlayır. Sonuncu Sərəncam bütün Azərbaycan xalqını, eləcə də biz veteranları sevindirdi. Bu, tarixi torpaqlarımıza qayıdacağımız günün uzaqda olmadığını bir daha göstərdi.

Respublika Veteranlar Təşkilatının sədr müavini qeyd edib ki, Azərbaycan Prezidentinin Cocuq Mərcanlının bərpası ilə bağlı Sərəncamı aprel döyüşlərində qazandığımız zəfərin nəticəsidir. Aprel döyüşlərində qəhrəman Azərbaycan əsgərinin işğaldan azad etdiyi strateji yüksəkliklər cəbhə xəttində ordumuza üstünlük qazandırmaqla yanaşı, bir neçə istiqamətdə yaşayış məntəqələrimizi düşmənin aramsız atəş zərbələrindən qurtardı. Hazırda bu strateji yüksəkliklərin ordumuzun nəzarətində olması həmin ərazilərdəki yaşayış məntəqələrinin yenidən bərpasına, məcburi köçkün həyatı yaşayan insanlarımızın öz doğma torpağına qayıdaraq məskunlaşmasına imkan verib. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi belə yaşayış məntəqələrindəndir. Qarabağ müharibəsində və ondan sonrakı dövrlərdə ermənilər tərəfindən dağıdılmış kəndin sakinləri buranı tərk etmək məcburiyyətində qalmışdı. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri aprel döyüşləri zamanı əldə etdikləri qələbədən sonra tarixən kənddə məskunlaşmış dinc əhalinin öz doğma kəndlərinə qayıtmaları üçün lazımi şərait yarandı. Azərbaycanın tam nəzarətinə keçmiş həmin ərazilərdə təhlükəsizliyin təmin olunması əsaslı yenidənqurma işlərinin başlanmasına imkan yaratdı.

C.Xəlilov bildirib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir. Qarşıya qoyulan strateji hədəflərə çatmaq üçün ölkə həyatının bütün sahələrində ardıcıl və məqsədyönlü iş aparılır, islahatlar həyata keçirilir. İnamla davam etdirilən inkişaf və tərəqqi siyasətinin nəticələri göz qabağındadır. Qarşıda duran əsas məsələ, ölkənin başlıca prioriteti məhz Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə nail olunmasıdır. Bu istiqamətdə müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində aparılan danışıqlar sülhün əldə olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə nəticələnməyəcəyi təqdirdə Azərbaycan Respublikası BMT Nizamnaməsinin müvafiq maddələrinə uyğun olaraq öz suveren hüquqlarından istifadə edə bilər. Təəssüf ki, işğalçı Ermənistanın rəhbərliyi və havadarları bunu başa düşmək, qeyri-konstruktiv mövqelərinə son qoymaq istəmədiyindən münaqişənin həllində hələ də ciddi irəliləyiş əldə edilməyib. Bu yaxınlarda dövlətimizin başçısının bəzi dairələrə münaqişənin həlli ilə bağlı BMT-nin müvafiq qətnamələrini xatırlatması da bununla bağlı idi.

*AZƏRTAC*

# Şərəfli ömür yolu

**Qələbə günündən illər keçsə də,**
**İllər həsrətləri azaltmamışdır.**
**Bizə təsəllidir yaxşı ki, Vətən,**
**Heç nəyi, heç kimi unutmamışdır...**

Bəli, Tofiq müəllim müharibənin bütün dəhşətlərini öz gözü ilə görmüş, onun iştirakçısı olmuşdur.

Onu çoxdan tanıyıram... Həlim xasiyyətli, olduqca mülayim bir insandır. Kollektiv arasında böyük nüfuz qazanıb. Tofiq Hüseynov 24.02.1922-ci ildə Gəncə şəhərində "Maarif xadimi", Lenin ordenli ziyalı ailəsində anadan olmuşdur. 1941-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılıb. 1941-ci ildən 1942-ci ilə kimi Tbilisinin Qori şəhərində hərbi qulluqda olub.

Tofiq Hüseynov 1942-ci ildə ilk dəfə alman faşist işğalçılarına qarşı Qafqazın müdafiəsində Marixal yüksəkliyinin işğaldan azad olunmasında fəal iştirak edib. Elə həmin ildə Tofiq müəllimin qulluq etdiyi hərbi hissə Novoçerkaski şəhərinə gəldi. Əmr alındı ki, meşədə kök salmış fərarilərdən ibarət banda dəstəsi fəaliyyət göstərir. Mülki əhalinin evlərini talan edənləri hərbi hissə darmadağın etdikdən sonra, 1943-cü ildən 1945-ci ilə kimi Avropa dövlətinin işğalçılardan azad olunmağa başladı. Tofiq müəllim 3-cü Ukrayna cəbhəsi kimi 45-ci qvardiya qazax hərbi hissəsində xidmət edirdi. 1943-cü ildən başlayaraq Avropa dövlətlərindən Rumıniya, Çexoslovakiya, Yuqoslaviya, Macarıstan, Avstriya dövlətlərini alman faşist işğalçılarından azad olunmasında fəal iştirak edib.

O, qələbəni 1945-ci ildə Avstrıyanın mərkəzi Vyana şəhərində bayram edib. Macarıstanın mərkəzi Budapeştin azad olunmasında və əlavə strateji əhəmiyyətli 3 şəhərin - Niredxazi, Nadxozinin alınmasında fədakar döyüş xidmətlərinə görə Ali Baş Komandan Stalinin 22 oktyabr 1944-cü il, 277-№-li, 1945-ci il tarixli əmrləri ilə 2 aprel 1945-ci ildə və 15 aprel 1945-ci ildə yazılı surətdə təşəkkürnamə ilə təltif olunub. 1945-ci ildə xüsusi tapşırığı yerinə yetirdiyi üçün rəşadətli xidmətə görə medalı ilə təltif edilib.

1945-ci ildə qələbəni başa vurduqdan sonra hərbi hissə Gəncə şəhərinə qayıdır. 1945-ci ildən 1947-ci ilə kimi hərbi qulluqda olub. Ordudan tərxis



olunduqdan sonra, 1947-ci ildən 2012-ci ilə kimi Gəncə şəhər Mədəni Maarif müəssisəsində işləyib. Təqaüdə çıxdıqdan sonra 2012-ci ildən hal-hazıra kimi Gəncə Şəhər Nizami Rayon Veteranlar Təşkilatının Sədri vəzifəsində çalışır.

İşlədiyi müddət ərzində müntəzəm olaraq gənclərin vətənpərvər böyüməsi və tərbiyə olunması məqsədilə müntəzəm olaraq təhsil müəssisələrində görüşlər keçirir, təbliğat-təşviqat əyani vasitələrin düzəldilməsində yaxından köməklik göstərir. Şəhər tədbirlərində, hərbi hissələrdə and içmə mərasimlərində, hərbiçilər qarşısında alovlu çıxışlar edir."N" saylı hərbi hissədə andiçmə mərasimində Azərbaycanın Müdafiə Naziri general-polkovnik Zakir Həsənov cənabları da iştirak edirdi.Tofiq müəllimin hərbiçilər qarşısında dolğun çıxışı, generalın xoşuna gəlmiş,çıxış üçün ona öz minnətdarlığını bildirmişdir. Hərbi hissənin rəhbəri Elzamin Behbudov tərəfindən Dünya Azərbaycanlıların Həmrəylik günü, Yeni il münasibəti ilə və anadan olmasının 95-ci ildönümü ilə əlaqədar Fəxri fərmanla təltif olunmuşdur.

Ağsaqqalın ən böyük arzusu isə müstəqil Azərbaycanın zəfər bayramında iştirak etmək, işğal olunmuş torpaqlarımızın azad edildiyi günü görmək, oranın havasını udub, suyundan içməkdir. Ordumuzun gücündən, qüdrətindən danışan Tofiq müəllim lazım gələrsə bu haqq yolunda döyüşməyə daim hazır olduğunu bildirir. İkinci Dünya Müharibəsində Gəncə şəhərindən 17 min nəfər ön xətdə vuruşub. Onlardan yalnız 9 min nəfəri geri qayıdıb. Hal-hazırda isə Gəncə şəhərində 15 nəfər BVM-si iştirakçısı yaşayır. O, Gəncə şəhər Nizami Rayon Veteranlar Təşkilatının Sədri kimi veteranların sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin həll olunması, xəstələrin müalicə olunması üçün dərmanların verilməsi sahəsində, həkimlərin yataq xəstələrinə yerində xidmət etməsi, xəstələrin sanotoriyalara göndərilməsi, torpaq və ev verilməsi məsələləri haqqında yerli hakimiyyət orqanları qarşısında vaxtaşırı məsələ qaldırır.



İkinci Dünya Müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının qəhrəmanlığı və şücaəti heç vaxt yaddaşlardan silinməyəcək. Onların qəhrəmanlıqları gənc nəsil üçün əsil vətənpərvərlik nümunəsidir.

Tofiq müəllimi yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı arzulayırıq.

*Ramiz Təmkin*

# Respublika Veteranlar Təşkilatında Fatma xanım Səttarovanın anadan olmasının 95 illiyi tamam olması münasibəti ilə keçirilib

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov açmışdır. O qeyd etmişdir ki , Fatma xanım Səttarovanın anadan olmasının 95 illiyi tamam olur. Fatma xanımı bütün Azərbaycan ictimaiyyəti, mən deyərdim Azərbaycan xalqı yaxşı tanıyır. O, həm İkinci Dünya müharibəsi veteranı, həm ziyalı, həm də fəal bir insan kimi ölkənin həyatında yaxından iştirak edir. Necə deyərlər, Fatma xanım həmişə sıradadır, həmişə ön cəbhədədir.




Qısaca məlumat verim ki, Səttarova Fatma Hüseyn qızı 1922-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1941-ci ildə könüllü surətdə cəbhəyə getmiş, müxtəlif cəbhələrdə, o cümlədən Moskva ətrafı döyüşlərdə və Leninqrad blokadasında iştirak etmişdir. Onun alman faşizminə qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar, şücayətlər barədə çox yazılıb, çox danışılıb. Elə bizim Təşkilatın qəzetinin son saylarından birində maraqlananlar bir daha bu barədə oxuya bilərlər.



Fatma Səttarova Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat və Moskvada Plexanov adına Universitetin Ticarətin idarəedilməsi fakültələrini bitirmişdir. O, yüksək təhsili, geniş dünyagörüşü ilə də fərqlənən bir insandır. Uzun illər dövlət idarələrində müxtəlif vəzifələrdə çalışdığı dövrlərdə o, əməli fəaliyyəti ilə bunu dəfələrlə sübuta yetirmişdir.

Fatma Səttarova bu gün də ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir. O, müharibə və əmək veteranı kimi Respublika Veteranlar Təşkilatının keçirdiyi tədbirlərdə fəal iştirak etməklə, gənclərin Vətənə, dövlətə sədaqət, hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında təcrübəsini və biliyini əsirgəmir. Azərbaycanı MDB ölkələrində, o cümlədən Rusiya Federasiyası, Belarus, Ukraynada İkinci Dünya müharibəsi ilə bağlı keçirilən tədbirlərdə layiqincə təmsil etmişdir.

Səttarova Fatma Hüseyn qızının həyatı bu gün gənc nəslin tərbiyəsində, Azərbaycanın ən layiqli insanları kimi yetişmələrində dəyərli nümunələrdən biridir. Biz ona bundan sonra da səmərəli fəaliyyət, cansağlığı və nəvə-nəticələri ilə birlikdə sevinc dolu neçə-neçə illər arzulayırıq.



Tədbirdə çıxış edən Respublika Nərimanov rayon İcra Hakimiyyətinin başçısı Fərzəliyev Abdin, Millət vəkili Adil Əliyev, Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri, Nərimanov Rayon Veteranlar Təşkilatının sədri Alı Hüseynov və digərləri yubilyarı təbrik edib ona öz xoş arzularını çatdırdılar. Fatma xanım Səttarovanın keçdiyi həyat yolu hər bir Azərbaycan gəncinə nümunə olduğu vurğulandı. Onun həyat və təcrübəsindən daim istifadə edilməsinin vacibliyi bildirildi.

Yubliyar Fatma Səttarova çıxışında başda Prezident İlham Əliyev olmaqla ölkə rəhbərliyinə və tədbirdə iştirak edən hər kəsə göstərdikləri diqqət və qayğıya görə minnətdarlıq etdi. Hər zaman Azərbaycan xalqını layiqincə təmsil etdiyini və bundan qürur duyduğunu ifadə etdi.

Sonda Yubliyara Respublika Veteranlar Təşkilatının təsis etdiyi "Veteran Həmrəyliyi" medalı Təşkilatın rəyasət heyətinin qərarı ilə yubliyara təqdim edildi. Həmçinin Respublika Veteranlar Təşkilatı tərəfindən yubliyara maddi yardım edildi, xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN VETERANI

# Vətənpərvərlik dönməz prosesdir

Vətənpərvərlik tərbiyəsi müxtəlif formalarda, müxtəlif üsullarla aparılır. Bu üsullardan biri də veteranlarla görüşlərdir. Veteranların tarixə, milli mentalitetə söykənən söhbətləri istər yeniyetmələrin orduya hazırlığına, istərsə də əsgərlərin mənəvi hazırlığına təsirsiz ötüşə bilməz. Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Təşkilatının bu istiqamətdə fəaliyyəti təqdirəlayiqdir.



Bu günlərdə Hərbi Dəniz Qüvvələrində keçirilən tədbirdə birinci dərəcəli kapitan Natiq Bağırov qonaqları təqdim etdi.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxışında bilavasitə şəxsi heyətlə işləyən zabitlərin üzərinə düşən vəzifələrdən, zabit-əsgər münasibətlərinin daha da möhkəmləndirilməsi zərurətindən əsgərin mənəvi hazırlığının döyüş hazırlığı qədər vacib olmasından danışaraq qeyd etdi ki, aprel döyüşləri həm ordumuzun gücünün, həm də ordu ilə xalqın birliyinin təsdiqi oldu. "Təsdiqləndi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir, sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın döyüş əmrinə hazırdır."

Ehtiyatda olan polkovnik Adil Haqverdiyev çıxışında dedi ki, vətənpərvərlik hisslərinin daha dinamik yüksəlişi ordunun gücü deməkdir. "Ordumuz kifayət qədər güclüdür. Ən müasir silahlar da əsgərə həvalə edilir. Deməli, əsgərin həm döyüş, həm də mənəvi hazırlığı bir-bir ilə təmasda aparılmalıdır. Zabitlərimiz bu amili həmişə diqqətdə saxlamalıdırlar."

Silahlı Qüvvələrimizdə, əsasən də Hərbi Dəniz Qüvvələrində 1-ci dərəcəli kapitan Aleksandr Qritçenko yaxşı tanınır. O, 51 kitab müəllifidir, 95 yaşı var. İstər təcrübəsini, istərsə də xatirələrini Silahlı Qüvvələrimizin əsgər və zabitləriylə böyük səxavətlə bölüşür. Tədbirdə iştirak edən qocaman hərbçi Böyük Vətən müharibəsində azərbaycanlı əsgər və



zabitlərin xidmətlərindən, şücaətlərindən söz açaraq bildirdi ki, mən ömrümün yarısını Bakıda yaşamışam. "Özümü bakılı hesab edirəm. Silahlı Qüvvələrimizlə həmişə fəxr etmişəm. Ona sevinirəm ki, yazdığım kitablar Azərbaycan Ordusunun əsgər və zabitlərinin mənəvi hazırlığında az-çox gərəkli olur." Sonra tədbir iştirakçılarına müraciətlə "Sevin Vətəni" - dedi. "Vətəni sevin, Xəzəri sevin. Gəncliyimin şahidi olan Bakı da, Xəzər də mənim ömrümün məbədidi...".

1-ci dərəcəli kapitan Zaur Hümmətov gərəkli tədbir üçün qonaqlara minnətdarlığını bildirdi.

Sonda bir qrup zabit Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının idarə heyəti adından ordenlə, fəxri fərmanla təltif edildi.

Tədbir bir daha təsdiqlədi ki, vətənpərvərlik dönməz prosesdir...

Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"

## Bu yaxınlarda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində İkinci Dünya müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 107-ci ildönümünə həsr olunan tədbir keçirildi.

Polkovnik-leytenant Mikayıl Hüseynov qonaqları, müəllim və kursant heyətini salamladı. Ulu öndər Heydər Əliyevin, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, müstəqilliyimiz və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildikdən sonra "Ürəklərdə yaşayan sərkərdə" sənədli filmi nümayiş etdirildi.

İlk söz alan Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı Həzi Aslanov haqda oxuduğu kitablardan bəzi xatirələri yada salaraq xoşbəxt millət olduğumuzu diqqətə çatdırdı: "Biz o qədər xoşbəxt millətik ki, oğullarımız uzaqlarda da Azərbaycanın adını həmişə yaşadıblar. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanov hər birimizə örnək olan, Azərbaycanın adını yüksəldən oğullardandır. İndiki müharibə şəraitində də Həzi Aslanov kimi oğullarımız az deyil."

Daxili İşlər Nazirliyinin keçmiş əməkdaşı, ehtiyatda olan polkovnik Həmid Cəfərov çıxışında ümummilli lider Heydər Əliyevin peşəkar zabit hazırlığına və qəhrəmanlıq salnaməsində adı keçən oğullarımıza qayğı göstərməsinə diqqət çəkdi: "Ümummilli Liderin rəhbərliyi dövründə istər İkinci Dünya müharibəsində, istərsə də Qarabağ müharibəsində döyüşən oğullarımız dövlətin himayəsində olublar. Ulu Öndərimizin Həzi Aslanov kimi oğullarımıza diqqət və qayğısı baxdığımız sənədli filmdəki çıxışından görsənir: "Həzi Aslanov Azərbaycan xalqının Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan nümayəndələrindən ən görkəmlisidir. O, döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi xüsusiyyətlərə layiq olduğunu nümayiş etdirmişdir.



Mən Böyük Vətən müharibəsində həlak olmuş, Azərbaycan torpaqlarını erməni təcavüzkarlarından müdafiə edərkən şəhid olmuş qəhrəman övladlarımızın xatirəsi qarşısında baş əyirəm."

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Azərbaycan Ali Hərbi Məktəbində görüşün təsadüf olmadığını bildirdi: "Biz həmişə çalışırıq ki, bizim kursantlarımız, gələcək zabitlərimiz ən yüksək biliyə nail olsunlar. Onların xidməti ilə həmişə maraqlanırıq. Arzu edirik ki, onlar da Azərbaycanın qəhrəman oğullarına oxşasınlar. Gördüyünüz film göstərdi ki, Həzi Aslanov Azərbaycanın Böyük Vətən müharibəsində xidmət etmiş ən görkəmli sərkərdələrindən biridir. İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş həmyerlimiz qeyri-adi istedada malik olan bir hərbçi idi. Belə qəhrəmanlarımız gənc nəsil üçün örnəkdir. Çünki dövlətimizin təhlükəsizliyini sizlər təmin edəcəksiniz. Azərbaycan torpağını işğaldan siz azad edəcəksiniz. Ona görə də hərbi, fiziki, mənəvi hazırlığınız yüksək səviyyədə olmalıdır. Torpaqlarımızın işğaldan azad olunmasında siz də öz sözünüzü deyəcəksiniz, Azərbaycan bayrağını Şuşada, Xankəndində və işğal olunmuş digər rayonlarımızda dalğalandıracaqsınız."

Sonda bir qrup hərbi qulluqçuya Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının adından fəxri fərmanlar təqdim edildi.

Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"

# ПОБЕДА И ПАМЯТЬ

## Никто не забыт, ничто не забыто!

Мы героев любим, помним,
Память чтим их от души!

## ВАСИЛИЙ СТЕПАНОВИЧ КУЗНЕЦОВ

Юность Василия Кузнецова прошла в Баку. Море было рядом. С ним, с Каспием, и мечты свои связывал паренек. Мечтал о морских походах, об океанских дорогах. А когда комсомольца Василия Кузнецова призвали на действительную службу, стал он военным моряком, но попал на суровую Балтику.

Великая Отечественная застала его в Таллинне, где старшина 2-й статьи Василий Кузнецов служил на лидере эскадренных миноносцев «Ленинград» командиром артиллерийского орудия.

В конце августа 1941 года, после тяжелого перехода из Таллиннской гавани в Кронштадт и Ленинград, боевые корабли стали на защиту города на Неве. Лидер «Ленинград» наносил по фашистам ощутительные удары своим артиллерийским огнем.

12 октября вспыхнула жестокая артиллерийская дуэль между советским кораблем и фашистской артиллерией. Лидер «Ленинград» на важнейшем участке фронта обеспечивал своим огнем оборону наших войск, сдерживал натиск бронированных фашистских батальонов.

Артиллерийский расчет Кузнецова действовал четко, стрелял метко. Одна за другой замолкали вражеские бата¬реи. Но те из них, которые еще действовали, продолжали ожесточенный обстрел нашего корабля. Вражеские снаряды рвались рядом с «Ленинградом». Осколок снаряда сразил установщика прицела из расчета Кузнецова. Но бой продолжался. Рядом с Кузнецовым разорвался вражеский снаряд. Василия контузило и тяжело ранило. Когда моряк пришел в сознание, он увидел, что дымится мешок с пороховым зарядом. Вот уже заплясали желтые языки огня, а недалеко находились приготовленные к стрельбе снаряды. Мгновение - и корабль может взлететь на воздух...

Истекавший кровью моряк схватил голыми руками горящий заряд и хотел выбросить за борт. Но сил не хватило, Василий упал на горящий заряд. Задымилась одежда, обгорала кожа на руках. Из последних сил полз к борту, передвигаясь вместе с горящим зарядом. Мучительным усилием Кузнецов столкнул за борт горевший заряд и потерял сознание.

В санчасти корабля ему оказали первую помощь. Но раны оказались смертельными, и мужественный моряк скончался.

Командующий Краснознаменным Балтийским флотом издал специальный приказ. В нем говорилось: «В дни героических боев за город Ленина в октябре 1941 года



погиб на своем боевом посту старшина 2-й статьи Кузнецов Василий Степанович.

Товарищ Кузнецов, несмотря на смертельное ранение, не щадя собственной жизни, заботился прежде всего о спасении корабля и умер как герой».

Для увековечения памяти героя-моряка на орудии, которым командовал В. С. Кузнецов, установлена мемориальная доска, его имя присвоено и этому орудию.

Имя Василия Кузнецова навечно внесено в списки экипажа лидера «Ленинград». Посмертно он награжден орденом Отечественной войны I степени.

## АСЛАНОВ АЗИ АГАДОВИЧ (АЗИ АХАД ОГЛУ)



(1910-1945), дважды Герой Советского Союза (1942 и 1991, посмертно), генерал-майор танковых войск (1944). На военной службе с 1929 года.Окончил Ленинградское кавалерийское училище. Участник советско - финской войны 1939-1940 годов.

В Великую Отечественную войну командир отдельного полка танковой бригады. Звание Героя Советского Союза присвоено за умелое руководство подразделениями полка, отразившими несколько атак противника при продвижении его к Сталинграду. Второй медалью "Золотая Звезда" награждён за мужество и отвагу, проявленные М в боях при освобождении Белоруссии.

Смертельно ранен в бою". ("Военный энциклопедический словарь" в двух томах. Москва - издательство - "РИПОЛ КЛАССИК" - 2001, том I, стр. 109). Академик А.М.Самсонов ещё в 1949 году целую книгу посвятил военной биографии Ази Асланова. Книга эта называется "Герой Советского Союза А. А. Асланов" (Москва - 1949). О нем написано много и других книг.

В 1987 (том I) и в 1988 (том II) годах в Москве вышла книга "Герои Советского Союза", в которой впервые даются сведения о всех Героях Советского Союза. Из этого сборника представлю вашему вниманию сведения о некоторых из них.

## НИКОЛАЙ АРТЕМОВИЧ БАРАНОВ АЛЕКСАНДР ПАВЛОВИЧ ПАШКОВ

Осенью 1943 года военная судьба свела этих шестерых матросов в отдельном отряде полуглиссеров 1-й бригады речных кораблей Днепровской военной флотилии, выполнявшей боевые задачи на реках Днепр, Березина, Припять,





Западный Буг, Висла, Одер. А с рекой Шпрее, протекающей по земле бывшего гитлеровского рейха, моряков связала трагическая судьба.

Но до этого была у каждого из них своя судьба, своя дорога в жизни - безмерно удалившейся мирной, счастливой и недавней, военной.

## АБДУЛЛАЕВ МАМИШ ШАХБАЗ ОГЛУ



Он родился в 1923 в с. Мурад-хан Кюрдамирского района Азербайджанской ССР в семье крестьянина. Азербайджанец. По окончании средней школы работал в колхозе счетоводом. В Сов. Армии с июня 1943.

В действ. армии - пулемётчик 1343-го стр. полка (399-я стр. див., 48-я армия, 1-й Белорус, фронт).

При прорыве обороны пр-ка у дер. Ры-нек-Остров (Польша) 3.9.44 канд. в члены КПСС сержант А. огнём из пулемёта обеспечил наступление роты. 4 сент. Переправился через р. Нарев у дер. Дворске (юж. г. Ружан) и огнём прикрыл переправу своей роты. Звание Героя Сов. Союза присвоено 24.03.45. Нагр. орд. Ленина, 2 орд. Красной Звезды, медалью. Погиб в бою 26.01.1945.

## ЯКОВ МИХАЙЛОВИЧ СИНЕВ

9-я гвардейская стрелковая бригада 56-й армии Северо-Кавказского фронта вела наступательные бои в районе станицы Крымская на Кубани. В одном из боев 17 апреля 1943 года совершил свой подвиг автоматчик гвардии рядовой Я.М.Синев.

Противник прочно удерживал оборонительный рубеж, расположенный на холмах и курганах. Фашисты глубоко врылись в землю, оборудовали долговременные огневые точки.

Перед наступлением началась артиллерийская подготовка. Но несмотря на плотный артиллерийский огонь, вражеские дзоты не все были подавлены. Два фашистских дзота, расположенных на господствующей высоте, простреливали весь участок наступления. Высота казалась неприступной. Она длительное время сковывала действия батальона автоматчиков. Пулеметы противника били почти не умолкая. Автоматчики залегли.

Командир роты приказал гвардии рядовому Я.М.Синеву подавить вражеские пулеметы.

Яков Синев, используя складки местности, пополз к высоте. Вот он приблизился к одному из дзотов и забросал его гранатами. Наступила тишина. Пулемет умолк. Не имея больше гранат и израсходовав все патроны, Яков Синев на глазах у всей роты бросился к дзоту и грудью закрыл его амбразуру. Пулемета атак из дзота прекратился. Рота пошла вперед, во вражеские траншеи и выбыла фашистов с высоты.

Похоронен Я. М. Синев у города Крымск. Имя его носят улицы в поселке городского



типа Инжавино, в городе Сумгаите, где он работал до армии. На доме в Сумгаите, в котором жил будущий герой советского Союза Я. М. Синев, установлена мемориальная доска.

## ВЕЗИРОВ АСЛАН ФАРХАДОВИЧ

Он родился 13.12.1910 в с. Зюмюрхан ныне Бардинского р-на Азерб. ССР в семье крестьянина. Азербайджанец. Член КПСС с 1931. В Сов. Армии с 1928. В том же году окончил Закавк. пех. школу, в 1941 - Военно-инж. Акад. Участник Великой Отечественной войны с июня 1941. Ком-р 1-й гв. штурм, инж.-сап. бригады (70-я армия, 2-й Белорус, фронт) гв. полковник В. отличился 20.04.45 при форсировании р. Одер. Бригада под его командованием переправила через реку в р-не нас. пункта Шёнинген (Каменец, 12 км южнее г. Щецин, ПНР) части 136-й стр. дивизии, которая первой захватила плацдарм. Затем В. под сильным огнём пр-ка успешно руководил переправой соединений 70-й армии. В течение 3 суток не покидал берег реки, воодушевляя личный состав бригады, был образцом доблести и отваги. Звание Героя Сов. Союза присвоено 26.06.45. После войны полковник В. - в запасе. Живёт в Баку. В течение многих лет руководит респ. комитетом ветеранов войны. Награжден орденами Ленина, 4 орд. Красного Знамени, орд. Кутузова 2 ст., Богдана Хмельницкого 3 ст., Отечественной войны 1 ст., медалями. В действ, армии с дек. 1941. Ком-р отделения автоматчиков 55-й гв. танк, орига-ды (7-й гв. танк, корпус, 3-я гв. танк, армия, 1-й Укр. фронт) гв. ст. сержант В. при наступлении 22.07.44 на пгт Куликов (Нестеровский р-н Львов, обл.) со своим отделением гранатами уничтожил 2 станк. пулемёта и 2 миномёта пр-ка, обеспечил продвижение батальона. 31 июля его отделение преодолело Вислу в р-не г. Баранув-Сандомерски (Польша), захватило рубеж на левом берегу, в бою уничтожило 2 враж. ручных пулемёта и заняло прочную оборону. 2 авг. в боях за г. Сташув автоматчики во главе со своим ком-ром подползли к огневым точкам пр-ка и гранатами уничтожили станк. пулемёт и 3



миномёта врага. Звание Героя Сов. Союза присвоено 23.09.44. Нагр. орд. Ленина. В одном из последующих боёв тяжело ранен. Умер 01.05.1945. Похоронен в г. Болеславец (ПНР). В гг. Баку и Лачин Азерб. ССР установлены бюсты Героя, а на здании завода, где работал, - мемор. доска.

Материал подготовил
АЛЕКСАНДР ГРИТЧЕНКО

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi**
**AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 012) 497- 63-58 (111)**

### Allah rəhmət eləsin

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət heyəti və Yasamal rayon İcra Hakimiyyəti İkinci Dünya müharibəsi veteranı

***Şıxəliyev Rəşid Məmmədəli oğlu***

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*